Müsabiqənin təşkil edilməsində əsas məqsəd İKT əsaslı fərdiləşmiş təhsilin formalaşdırılmasından ibarətdir.

Qeyd edək ki, müsabiqənin Təhsil Nazirliyinin tabeliyində olan ümumi təhsil müəssisələrinin rəhbərləri və müəllimləri arasında hər il keçirilməsi qərara alınıb. İki mərhələdə təşkil ediləcək müsabiqəyə təqdim olunacaq işlər müvafiq meyarlar üzrə qiymətləndiriləcək və qaliblər mükafatlandırılacaqlar.

Azərbaycanın təhsil sistemində ilk təcrübə kimi təşkil edilən müsabiqə ilə bağlı ətraflı məlumatlar www.musabiqe.edu.az saytında yerləşdirilib. Müsabiqədə iştirak etmək istəyənlər fevralın 8-dək layihələrini təqdim edə bilərlər.

Müsabiqə çərçivəsində qalib gəlmiş müəllimlərin tədris apardığı bir sinifdəki şagirdlərin hər birinə netbuklar veriləcək.